Dekabrın 2-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Dağlıq Şirvan Regional Təhsil İdarəsinin Tədrisin keyfiyyəti sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Aişə Bayramova, Dünya Əsədova, Rəxşəndə Babayeva və Turanə Musayevanın, Dağlıq Şirvan Regional Təhsil İdarəsinin İnzibati təşkilat sektorunun məsləhətçisi vəzifəsinə namizəd Azər Ömərovun müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 4 şikayətin təmin edilməməsi və 1 şikayətin qismən təmin edilməsi barədə şura tərəfindən qərarlar qəbul olunub.